DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (329) / DEKABR 2018-Cİ İL



# DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 dekabr 2018-ci il.

# «AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR» MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB





Dekabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Sumqayıt Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda regional konfrans keçirilib. Konfransda adı çəkilən qurumların rəhbər şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

Sumqayıtdakı Heydər Əliyev Mərkəzində keçirilən regional konfransı ŞİH başçısının birinci müavini Teymur Səmədov açıb. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin diqqət yetirdiyi sahələrdən biri də xalqımızın milli-mənəvi dəyərlərə qayıdışının sürətlənməsi, eyni zamanda, dini bayramların dövlət səviyyəsində qeyd olunması idi. Bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edən natiq ölkəmizdə dövlət quruculuğu prosesləri və dövlət-din münasibətlərinin tənzimlənməsi, cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olunması istiqamətində mühüm addımların atıldığını deyib.

DQİDK sədri Mübariz Qurbanlı çıxışında milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural prinsiplərin təşviqi, dini maarifçilik işinin aparılması və dini radikalizmlə mübarizə sahəsində görülən işlərdən danışıb. Qeyd edib ki, ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması Ümummilli Liderin adı ilə bağlıdır. Bu nümunəvi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Dövlətimizin başçısının sərəncamları ilə son illər tarixi dini abidələr, ziyarətgahlar bərpa edilir, milli-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər keçirilir. Dövlət Komitəsinin sədri Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu diqqət və qayğının parlaq nümunəsi kimi səciyyələndirib.

Mübariz Qurbanlı bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təqdirəlayiq fəaliyyəti haqqında da danışıb. Ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda aparılan təmir-bərpa işlərini dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürü kimi qiymətləndirib.

Ölkəmizdə dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını deyən Komitə sədri dövlətimizin din siyasətinin əsas məqsədinin ölkədə dini durumun müsbət inkişafı üçün əlverişli şəraitin yaradılmasından, həmçinin cəmiyyətdəxili sabitliyin möhkəmləndirilməsindən ibarət olduğunu diqqətə çatdırıb.

Mübariz Qurbanlı vurğulayıb ki, hazırda respublikada dini durum sabitdir, ölkədəki dini tolerantlığın səviyyəsi yüksəkdir. Bu istiqamətdə aparılan maarifləndirmə tədbirlərinin əhəmiyyətinə toxunan natiq milli-mənəvi dəyərlərin cəmiyyətə, xüsusilə gənc nəslə aşılanmasının vacibliyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Rauf Sərdarov da dinə dövlət qayğısından bəhs edib. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində bölgənin məscidlərinin əsaslı təmir edildiyini, burada dindarların ibadəti üçün lazımi şəraitin yaradıldığını vurğulayıb və bütün bunlara görə ölkə rəhbərliyinə dindarlar adından minnətdarlığını bildirib.

***Konfrans işini dekabrın 26-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirib.***

Məktəb direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və məktəb psixoloqlarının iştirak etdiyi tədbiri giriş sözü ilə açan Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Fərman Kazımov bildirib ki, ölkəmizdə dövlət quruculuğu prosesləri, dövlət-din münasibətlərinin tənzimlənməsi, cəmiyyətdə ictimai-siyasi sabitliyin bərqərar olunması, iqtisadiyyatın inkişafının dönməz xarakter alması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasi kurs bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O, eyni zamanda ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsinin bütün dünyada yüksək qiymətləndirildiyini vurğulayıb.



Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov vurğulayıb ki, bu gün Azərbaycan özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədərdir və qədim tarixə malikdir. Onun sözlərinə görə, ölkəmizdə kilsə, sinaqoq və məscidlər azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərirlər. Təbii ki, belə bir mühit dövlətin apardığı siyasət və xalqın unikal daxili birgəyaşayış mədəniyyətini həyat tərzinə çevirməsi nəticəsində formalaşıb. Sədr müavini multikultural və tolerant dəyərlərin Azərbaycanın mənəvi sərvəti olduğunu, hazırda ölkəmizin dünyada bu dəyərlərin ən böyük ixracatçısına çevrildiyini qeyd edib.

Gündüz İsmayılov bildirib ki, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması Prezident İlham Əliyevin Azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxladığının göstəricisidir.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov da çıxışında dini radikalizmə qarşı mübarizə, cəmiyyətin, xüsusən gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınmasında dini maarifləndirmənin rolu və önəmi kimi məsələlərə toxunub.

Tədbir iştirakçılarının suallarının cavablandırılması ilə yekunlaşıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SUMQAYITDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Qəbul zamanı müraciət və təkliflərin, ərizə və şikayətlərin həlli üçün operativ tədbirlər görülür.

Dekabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Sumqayıtda vətəndaşları qəbul edib.

Əvvəlcə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Qəbulda Sumqayıt şəhəri ilə yanaşı, Abşeron, Xızı, Qubadlı və Zəngilan rayonlarının sakinləri də iştirak edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması məsələlərini qaldırıblar. Eyni zamanda, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə də baxılıb.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# "DİNİ QURUMLAR VƏ SOSİAL MEDİA"



Dekabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Dini qurumlar və sosial media" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə açan DQİDK sədri Mübariz Qurbanlı mövzunun əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, sosial media və onun funksiyaları hər zaman müzakirə predmeti olub və bu vasitə dünyada insanlar arasında ünsiyyət yaradılması baxımından ənənəvi media nümunələrini üstələyir.

Sosial medianın müsbət tərəfləri ilə yanaşı, müəyyən problemlərə səbəb olduğunu vurğulayan M.Qurbanlı qeyd edib ki, Avropanın ən inkişaf etmiş ölkələrində belə sosial mediaya nəzarət edilir. Çünki bu sahədə insani dəyərlərə, əxlaqa zidd məsələlərlə əlaqədar məlumatlar geniş şəkildə yayılır, təşviq və təbliğ olunur. Son dövrlərdə sosial şəbəkələr mənfi qüvvələrin, məkrli insanların, hansısa məqsədə qulluq edənlərin də ən çox istifadə etdiyi və geniş kütlələrə təsir etməyə cəhd göstərdiyi alətə çevrilib. Dövlət Komitəsinin sədri bildirib ki, bu səbəbdən qeydolunan mövzu Azərbaycanda da daim diqqət mərkəzindədir. Ölkəmizdə 909 dini icmanın dövlət qeydiyyatından keçdiyini söyləyən Mübariz Qurbanlı bütün bu mənfi təzahürlərin qarşısının alınmasında din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə düşən vəzifələri qeyd edib. O, dini qurumlara dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini cəmiyyətə həm də sosial media vasitəsilə çatdırmaqda aktivlik nümayiş etdirməyi tövsiyə edib.

Sonra DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova "Sosial media və din" mövzusunda təqdimatla çıxış edib. Bildirib ki, müasir texnologiyaların inkişafı media sahəsində "sosial media" məfhumunun yaranmasına yol açıb. Sosial medianın artıq sosial ünsiyyət vasitəsinə çevrildiyini deyən V.Hüseynova qeyd edib ki, Azərbaycanda əhalinin 75 faizindən çoxu fəal internet istifadəçisidir, 2 milyonu isə sosial media iştirakçısıdır. Sosial medianın müsbət və mənfi yönlərini sadalayan müdir müavini bildirib ki, sürətli rabitə vasitəsi olan bu sahənin insanlara həm fiziki, həm psixoloji, həm də mənəvi zərəri var. Bu gün yalan informasiya yayan, din pərdəsi altında gizlənmiş, İslamı gözdən salan qüvvələr çirkin əməlləri üçün sosial media imkanlarından çox effektli şəkildə istifadə edir. Sosial şəbəkə ölkədə sabitliyi pozmaq istəyənlər üçün güclü təbliğat obyektidir. Bütün bunlar sosial medianın gücünün dəyərləndirilməsi məsələsini aktuallaşdırır. Bu sahədə müəyyən addımlar atılsa da, təəssüf ki, hələ qarşısı alınmayıb.

Daha sonra çıxış edən Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, ölkədə sabitliyin pozulması üçün əsas təhlükə radikal dini cərəyanlardan və ideologiyalardan gəlir. Bu sahədə daha ciddi problemlər yaranır. Azərbaycanda baş verən iqtisadi inkişaf ayrı-ayrı ölkələr tərəfindən müsbət qarşılanmır. Bəzi ölkələr var ki, Azərbaycanla bağlı sistemli şəkildə qarayaxma işi ilə məşğuldur. Bundan da Ermənistan, erməni lobbisi istifadə etməyə çalışır. Ə.Amaşov deyib ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da ictimai fikir internet üzərindən yayımlanan mətbuat orqanları, əsasən də sosial şəbəkələr vasitəsilə yayılır. Şura sədri bildirib ki, hazırda Azərbaycan "Mətbuat Şurası haqqında" qanun layihəsi üzərində işlənir və qanunda vətəndaşların şərəf və ləyaqətlərinin alçaldılmaması məsələsi diqqətdə saxlanılır.

"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov öz çıxışında bildirib ki, hansısa dinin daxilində fikir ayrılıqlarının olması dinin zəifləməsinə gətirib çıxarır. Dinlər arasında mehribanlıq yoxdursa, bu, bəşəriyyətə bəla gətirə bilər. Azərbaycanın dini mövqeyinin dünyaya çatdırılması və bunun artıq dünya tərəfindən öyrənilməsi ən böyük uğurlarımızdan biridir. B.Sadıqov əlavə edib ki, media dünyagörüşü, biliyi olan jurnalistlərin çalışdığı sahədir. Sosial şəbəkələrdə isə fərqli düşüncə, əqidəsi, hətta dünyagörüşü olmayanlar da fikir paylaşırlar. Media qanunlar əsasında fəaliyyət göstərir, jurnalistlərin peşə davranışı qaydaları var, ancaq sosial şəbəkələrdə, xüsusən, insanlarla bağlı sərhədlər pozulur.

Mövzu ilə bağlı çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli diqqətə çatdırıb ki, bu gün sosial media problemi bütün dünyanı lərzəyə gətirir. Artıq media deyəndə qəzet, jurnalla yanaşı, internet media da nəzərdə tutulur. Lakin sosial şəbəkələri media kimi qiymətləndirmək düzgün deyil. Sosial şəbəkənin media kimi qəbul olunmamasının səbəbi bu sahədə məsuliyyətin olmamasıdır. V.Səfərli qeyd edib ki, əgər televiziya və jurnalda jurnalist hər hansı məlumat yayırsa, onlar buna görə məsuliyyət daşıyırlar. Amma sosial şəbəkələrdə bu belə deyil. Azərbaycan tolerant ölkədir. Ölkəmizdə keçirilən tədbirlər də Azərbaycanın sabitliyini sübut edir. Hər bir vətəndaş dinindən, irqindən asılı olmayaraq onu Vətəni hesab edir. Lakin bununla yanaşı, xaricdən idarə olunan qüvvələr var. İlahiyyatçılarımızın bəziləri xaricdə təhsil alıb. Bu məqam da müəyyən təhlükələr yaradırdı. Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutu bu sahədə kadrların yetişdirilməsi üçün mühüm rol oynayacaq.

V.Səfərli onu da vurğulayıb ki, bu sahədə təbliğata böyük ehtiyac var: "Buna görə də DQİDK ilə birlikdə biz çoxsaylı tədbirlər keçirmişik. Sosial şəbəkədə nə qədər cəfəngiyyat yayılsa da, jurnalistlər həm sosial şəbəkə, həm də media vasitəsilə onlara cavab verməlidir".

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər Cavadlı bildirib ki, Azərbaycanda sosial mediada kütləvi informasiya vasitələrindəki kimi 3 qaydanın hamısı var – məlumatlandırma, maarifləndirmə və əyləndirmə. Ölkəmizdə ilk dini sayt 2003-cü ildə açılıb. Hazırda rəsmi şəkildə fəaliyyət göstərən bir neçə sayt var. "Bizim hər zaman qarşımıza qoyduğumuz məqsəd - Azərbaycanda dini tolerantlığa, multikulturalizmə, İslam dininin, milli-mənəvi dəyərlərin təbliğinə yönəlib", - deyə Q.Cavadlı vurğulayıb.

Daha sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Katolik kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Aparat rəhbəri Aytən Qəhrəman, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili mövzu ilə bağlı fikirlərini bölüşüblər.

# MÜBARİZ QURBANLI: ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DİNİ QAYDALARIMIZA ÇOX CİDDİ ŞƏKİLDƏ ƏMƏL EDİB VƏ BUNU BAŞQALARINA DA TÖVSİYƏ EDİB

Ulu Öndər Heydər Əliyevin qoyduğu irs, həyata keçirdiyi siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qafqaz Müsəlmanları İdarəsində Ümummilli Lider Heydər Əliyevin vəfatının 15-ci ildönümünə həsr olunmuş tədbirdə deyib.

M.Qurbanlı bildirib ki, Heydər Əliyev dinə, mənəvi dəyərlərimizə bağlı insan idi: “Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev ölkədə iqtisadi çətinliklərə baxmayaraq, Bibiheybət, Təzəpir məscidlərinin təmir və bərpasına diqqət və qayğı göstərdi. Heydər Əliyev dini qaydalarımıza çox ciddi şəkildə əməl edib və bunu başqalarına da tövsiyə edib. Ulu Öndərin müəllifi olduğu Konstitusiyada da vicdan azadlığı, din azadlığı təsbit olundu”.

Komitə sədri vurğulayıb ki, Heydər Əliyevin müəyyən etdiyi yol Azərbaycan üçün əbədi yoldur və bu yolu Azərbaycan xalqı, müstəqil dövlət yaşadacaq, Heydər Əliyevin xatirəsi daim Azərbaycan xalqının qəlbində olacaq: “Heydər Əliyevin qoyduğu yol bu gün əmin əllərdədir, Prezidet İlham Əliyev bu yolu uğurla davam etdirir”.

# İlham Əliyevin modern dövlət modeli

## Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın dövlət quruculuğu təcrübəsi artıq dünyada mükəmməl örnəklərdən biri kimi qəbul edilir

“2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır”.

Dövlət başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirdiyi bu fikirlər 2018-ci ilin real mənzərəsini göz önündə canlandırır. Dövlət başçısı İlham Əliyevin siyasi, iqtisadi, hərbi, sosial, humanitar və bir çox sahələrdə həyata keçirdiyi uzaqgörən, uğurlu siyasət nəticəsində dinamik inkişafa nail olunur, ölkəmiz bu gün məhz bu inkişafın sayəsində beynəlxalq arenada öz mövqeyini gücləndirir və əsl söz sahibinə çevrilir.

### *2018-ci ilin sosial-iqtisadi uğurları*

Bu ilin ən böyük uğurları sırasında regionun inkişafı, iqtisadi imkanların genişləndirilməsi baxımından önəmli olan Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsini xüsusi vurğulamaq lazımdır. Azərbaycanda dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin Qara dəniz konfransının, Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq əlaqələrinin gələcək inkişafına yeni imkanlar yaradacaq görüşlərin keçirilməsi, eləcə də enerji siyasətimizin inkişafının növbəti uğurlu layihəsi olan “Cənub qaz dəhlizi”nin açılışı, qardaş Türkiyə Respublikasında XXI əsrin enerji tarixinə qızıl hərflərlə yazılan TANAP layihəsinin açılış mərasimi, eyniadlı qaz kəmərinin istifadəyə verilməsi başa çatan ilin ən uğurlu iqtisadi göstəriciləri hesab edilməlidir.

Cari ilin oktyabr ayında İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türkiyənin İzmir şəhərində ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək “Star” Neft Emalı Zavodunun açılışı, Xəzər dənizinin ən böyük limanı olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi ölkəmizin dinamik iqtisadi yüksəlişinin bariz sübutudur. Həmçinin beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli hadisəyə çevrilən 90-dan artıq ölkədən 400-dən çox xarici qonağın iştirak etdiyi Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsini və bir çox önəmli hadisələri sadalamaq olar. Bütün bu göstəricilər ölkəmizin beynəlxalq maliyyə institutları və aparıcı təşkilatlar tərəfindən dünya ölkələri arasında ən etibarlı və sağlam tərəfdaş kimi tanınmasına şərait yaradıb ki, bu uğurlu inkişafın təməlində də Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti dayanır.

2018-ci ildə Prezident İlham Əliyevin sosialyönümlü dövlət quruculuğunun təmin olunması istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Prezidentin apardığı bu siyasət bir daha sübut edir ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial baxımından aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Sosial sahədə büdcə vəsaitlərinin ildən-ilə artırılması bu sahəyə Azərbaycan Prezidentinin qayğısını bir daha təsdiq edir. Bütün bunlar göstərir ki, güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Respublikasında qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənib, yeni istehsal sahələri yaradılıb, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlib, ixrac qabiliyyəti artıb. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir.

### *Azərbaycanın mədəniyyətlər və dinlərarası dialoqa töhfəsi*

2018-ci il beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsi, qonşu dövlətlərlə, həmçinin İslam ölkələri ilə münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə də yadda qalıb. Təsadüfi deyil ki, İslam aləmində birliyin, sabitliyin, həmrəyliyin möhkəmləndirilməsi, islami dəyərlərin bütün dünyaya düzgün çatdırılması, multikulturalizm ənənələrinin təbliği işindəki fəaliyyətimiz İslam Əməkdaşlıq Təşkilatı tərəfindən də yüksək dəyərləndirilir. 2018-ci ildə Bakıdan sonra bu dəfə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı adına layiq görülməsi özlüyündə müsəlman dünyasının ölkəmizə verdiyi dəyərin bariz nümunəsidir.

Bu il də Prezident İlham Əliyevin siyasətində tolerant və multikultural dəyərlərin əhəmiyyətli yer tutduğuna bir daha şahid olduq. Ölkə rəhbərliyinin dəstəyi ilə 2018-ci ildə də müxtəlif xarici ölkələrdə Azərbaycanın multikultural dəyərlərinin təbliği və təşviqi ilə əlaqədar beynəlxalq konfranslar keçirilib ki, bu tədbirlər coğrafi olaraq çox geniş ərazini əhatə edib. İspaniya, Avropanın müxtəlif ölkələri, Almaniya və başqa ölkələrdə təşkil edilən tədbirlərdə Azərbaycanın multikultural dəyərləri ətraflı şəkildə insanlara çatdırılıb. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi ilə reallaşan beynəlxalq tədbirlər insanların multikulturalizm və tolerantlıq ruhunda maarifləndirilməsinə, dünyada sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə



verib. Ölkə rəhbərinin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verir və verməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülüb. Dövlət başçımız İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Ölkəmizdə mövcud olan digər dinlərin nümayəndələri də dövlət başçımızın diqqət və qayğısından kənarda qalmırlar. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə münasibətində, din sahəsini ehtiva edən qanunvericilik bazasının möhkəmləndirilməsində də açıq şəkildə görmək mümkündür.

Siyasətində insan amilinə böyük dəyər verən İlham Əliyevin İslam ölkələrinin həmrəyliyi, eləcə də mədəniyyətlər və dinlər arasında harmoniyaya nail olunması istiqamətində atdığı addımları xüsusilə qeyd etmək lazımdır. Sivilizasiyalararası, dinlərarası dialoqu dərinləşdirən, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilməsini şərtləndirən tədbirlərin keçirilməsi, bütün dinlərin nümayəndələrinə bərabər şəraitin yaradılması ölkə rəhbərinin bu sahədəki siyasətinin ana xəttini təşkil edir.

2017-ci ilin Azərbaycanda “İslam həmrəyliyi ili” elan edilməsi, mürəkkəb geosiyasi şəraitdə müsəlman ölkələrinin əməkdaşlığına əhəmiyyətli töhfələri ilə yadda qalan və İslam aləmində böyük nüfuz qazanan IV İslam Həmrəyliyi Oyunlarının, “2017 - İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfransın, “Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi” mövzusunda I Beynəlxalq Bakı Forumunun keçirilməsi və bu mötəbər tədbirin bağlanış mərasimində “Bakı

davamı səh. 5

əvvəli səh. 4

platforması"nın qəbul olunması, eləcə də qəbul olunan bu platforma əsasında Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin təsis edilməsi, həmçinin, qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilən Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi ölkəmizin İslam, eləcə də dünya ölkələri arasında nüfuzunun güclənməsinə zəmin yaradıb. Bütün bu tədbirlər sırasında artıq 10 ildir mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə yüksək səviyyəli qonaqların iştirakı ilə Azərbaycanda keçirilən "Bakı Prosesi" konfransı xüsusi əhəmiyyətə malikdir. Ötən on il ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilib. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanıb. 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır.

Azərbaycan dünya miqyasında həm İslam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir. Bu gün ölkədə həyata keçirilən dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas və fərqləndirici xüsusiyyəti odur ki, dindarlara və onların dini hisslərinə hörmət, tolerant və multikultural dəyərlərin qorunması, inkişafı sözdə deyil, əməldədir. Məsələn, ölkə rəhbəri İlham Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsinə, həmçinin məscidlərin, ziyarətgahların, kilsələrin, sinaqoqların inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır, eyni zamanda, hər il müsəlman və qeyri-müsəlman dini icmalarına dövlət büdcəsindən maliyyə yardımı ayrılır, ölkədəki ibadətgahlara illik limitlə pulsuz təbii qaz verilir və s. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə ölkəmizdə 17 məscid vardısa, bu gün onların sayı 2250-dən çoxdur, eyni zamanda, ölkə ərazisində 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Ölkəmizdə 877-si İslam, 32-i isə qeyri-islam (xristian - 21; yəhudi - 8; bəhai - 2; krişna - 1) olmaqla 909 dini qurum qeydiyyatdan keçib.

Azərbaycan dünyada öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq olan az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət strategiyası olaraq əsasını ümummilli lider Heydər Əliyev qoymuş, bu zəngin ənənə hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox böyük diqqət və qayğı göstərir. Azərbaycanda dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rol oynadığını vurğulayan Prezident İlham Əliyev bu fikri aşağıdakı kimi şərh edib: "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət göstərdiyi qədim Azərbaycan torpağında yüzillərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır".

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Bu gün öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim edən Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilib. Son illər həm lokal, həm də qlobal əhəmiyyətli çoxsaylı sammitlərin, forumların, konfrans və seminarların ölkəmizdə təşkil olunması tamamilə məntiqəuyğundur.

Bu il altıncısı keçirilən Bakı Beynəlxalq Humanitar Forumu bu qəbildən olan, aktual, ümumbəşəri, humanitar məsələlərin müzakirə edildiyi nüfuzlu tədbirlərdəndir. Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab tapmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair genişspektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq



miqyasda nüfuzlu elmi-siyasi platformadır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal ölkədir. Belə vacib tədbirə məhz Bakının evsahibliyi etməsi forumun əhəmiyyətini daha da artırır. Çünki paytaxtımız müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu bir məkandır, Azərbaycan torpağı bütün dövrlərdə tolerantlığı və qonaqpərvərliyi, Azərbaycan xalqı isə yaratmaq və birləşdirmək bacarığı ilə tanınıb. Çünki bu torpaqlarda insan amili hər zaman yüksək yerdə dayanıb, insana yüksək dəyər verilib.

Xalqımızın milli-mənəvi irsinin qorunması, təbliği, tədqiqi və onun gələcək nəsillərə ötürülməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü misilsiz işlər xüsusi vurğulanmalıdır. Belə ki, məhz fondun maliyyə dəstəyi ilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə bu il İmam Hüseyn məscidində təmir-bərpa işləri aparılıb və dindarların istifadəsinə verilib.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər respublikanın hüdudlarını aşaraq Avropanın sərhədlərinə çatıb ki, bu da ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir. Qeyd edək ki, 2018-ci ildə Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışı olub. Bundan əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombaları da bərpa olunub. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi Azərbaycanın Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə, ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

### *Ölkəmizdəki yüksək dini-mənəvi mühit və onun inkişafı*

Ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri təkmilləşməkdə və möhkəmlənməkdədir. Azərbaycan hökumətinin vətəndaşların etiqad azadlığının təminatı sahəsində həyata keçirdiyi tədbir və qərarlar öz müsbət bəhrələrini verməkdədir. Hazırda Azərbaycan Respublikasında dini durum sabitdir, bu sahədə cərəyan edən proseslər və tendensiyalar nəzarətdədir.

Təcrübə göstərir ki, bu gün dini sahədə ortaya çıxan əksər problemlərin kökündə dini savadsızlıq, İslamın olduğu kimi təqdim edilməməsi dayanır. Məhz bu səbəbdən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi önəm verir. Çünki dini maarifləndirmə düzgün aparıldığı zaman dini təhlükəsizlik və ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilir, dini zəmindəki ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır.

Maarifləndirmə işi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət Komitəsi ölkədə dövlət-din münasibətlərinin, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işi aparır. Bu məqsədlə komitənin "Dövlət və Din" ictimai fikir toplusu və "Cəmiyyət və Din" qəzeti nəşr olunur; dini radikalizm, ekstremizm, fanatizm və xurafat meyillərinin qarşısını almaq, eyni zamanda milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlanır; İctimai TV-də hər həftə "Din və Cəmiyyət" verilişi, Space TV-də "İnam" verilişi efirə gedir; ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktual olan mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, "dəyirmi masa"lar təşkil edilir. Eyni zamanda, keçirilən əksər tədbirlərdə Dövlət Komitəsinin sifarişi ilə ərsəyə gəlmiş, dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə", Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət", İslam dininin sülhsevərliyindən, tolerantlığından bəhs edən "Üfüqdəki gələcək" və bu günlərdə ictimaiyyətə təqdim olunmuş Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olmuş birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri işıqlandırılmış "Vəhdət qanımızdadır" sənədli filmləri nümayiş olunur. Ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirilən filmlər ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır.

Bunlarla yanaşı, vətəndaşlarımızın,

davamı səh. 6

əvvəli səh. 5

xüsusilə gənclərimizin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə Dövlət Komitəsi ayrıca və digər qurumlarla birgə 550-dən artıq tədbir həyata keçirib. 45 minə yaxın insanın iştirak etdiyi bu tədbirlərdə mərkəzi və yerli icra hakimiyyəti orqanları, Silahlı Qüvvələr, eləcə də hüquq-mühafizə orqanları, təhsil müəssisələri, gənclər təşkilatları, dini qurumlar və digər QHT-lər ilə yaxından əməkdaşlıq edilib. Qeyd olunan qurumlarla yanaşı, Dövlət Komitəsi ötən illərin təcrübəsinin davamı olaraq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bilik Fondu, AMEA, Qafqaz Müsəlmanları İdarəsi, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığı davam etdirmişdir. Bu tədbirlərin əksəriyyəti Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirilib.

Məlum olduğu kimi, Prezident cənab İlham Əliyev tərəfindən 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında sərəncam imzalanıb. Dövlət Komitəsi tərəfindən bu istiqamətdə müxtəlif formatlarda 24 tədbir təşkil edilib. "Azərbaycanın multikultural mühitinə təhdidlər: erməni vandalizmi və soyqırımı siyasəti - son 100 il" adlı konfrans, dini icmaların üzvləri arasında "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda məqalə müsabiqəsi bu qəbildən keçirilmiş tədbirlərdəndir.

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Dövlət Komitəsinin Tədbirlər Planına uyğun olaraq "Vətən sevgisi imandandır" mövzusunda 17, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar 22, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə əməkdaşlıq çərçivəsində "İnsan hüquqları aylığı" ilə bağlı 15, "Sülh aylığı" ilə əlaqədar 22, "Uşaq hüquqları aylığı" ilə bağlı isə 32 tədbir olmaqla ümumilikdə 69 maarifləndirmə xarakterli tədbir həyata keçirilib.

Bu il ərzində ölkənin şəhər və rayonlarında "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda 13 ikigünlük regional konfrans, "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda 17 seminar-müşavirə, "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda 20 ikigünlük seminar-treninq təşkil olunmuşdur. Bununla yanaşı, "Dövlət-din münasibətlərinin hüquqi bazası" mövzusunda respublika müşavirəsi, "Dini radikalizmlə mübarizədə qadınların yeri və rolu" mövzusunda isə regional konfranslar baş tutmuşdur.

Eyni zamanda, 2018-ci ildə Bakı şəhərində müxtəlif mövzularda 18 konfrans, eləcə də Məhərrəm ayı ərəfəsində "Dini mərasimlər: ənənəvilik və müasirlik" və digər müvafiq mövzularda silsilə tədbirlər həyata keçirilib.

Dövlət Komitəsi və regional şöbələrimiz tərəfindən cari il ərzində 20 Yanvar və Xocalı faciələri, 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar tədbirlər təşkil olunub. Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin "Dini ekstremizmə qarşı mübarizəyə məsul dövlət qurumlarının əməkdaşları ilə 2018-ci ildə keçirilən seminar-müşavirələrin Tədbirlər Planı" çərçivəsində "Dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" və "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzularında 10 seminar-müşavirə keçirilib.

Dövlət Komitəsi cari ildə dini maarifləndirmə işi sahəsində Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə əməkdaşlığı daha da dərinləşdirib. Belə ki, ilin əvvəlindən Müdafiə Nazirliyi ilə 9, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə 11, Dövlət Sərhəd Xidməti ilə 6 tədbir həyata keçirib. Dövlət Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında imzalanmış Tədbirlər Planı çərçivəsində cəzaçəkmə müəssisələrində məhkumların vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirmə işinin aparılması məqsədilə 33 tədbir baş tutub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini radikalizm və ekstremizmə, eləcə də xurafat meyillərə qarşı mübarizə, həmçinin milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində Yeni Azərbaycan Partiyası və Gənclər birliyi ilə də yaxından əməkdaşlıq edib.

Dövlət Komitəsi 2018-ci ildə bir sıra dövlət və özəl müəssisələri ilə də yaxından əməkdaşlıq edib. Belə ki, dini radikalizmin törətdiyi təhdidlərlə bağlı preventiv xarakterli, eləcə də ölkəmizdə mövcud tolerantlıq mühitinin daha da gücləndirilməsi, multikulturalizm siyasətinin təbliği və təşviqi məqsədilə müxtəlif qurumların kollektivləri arasında dini maarifçilik işinin təşkili məqsədilə 23 maarifləndirici tədbir həyata keçirib.

Dövlət Komitəsi ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə hər il ənənəvi olaraq tədbirlər təşkil edir. Bu il də Dövlət Komitəsi tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə keçirilən silsilə tədbirlərin yekunu olaraq may ayında dövlət, media və dini qurumlar, eləcə də qeyri-hökumət təşkilatları və elmi ictimaiyyətin iştirakı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfrans təşkil olunub. Konfransın materialları kitab formatında çap olunaraq oxucuların ixtiyarına verilib.

Dövlət Komitəsi maarifləndirmə işini təkcə ölkə daxili ilə məhdudlaşdırmayıb, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də fəaliyyətini davam etdirib. Ölkə hüdudlarından kənarda keçirilmiş beynəlxalq tədbir və konfranslarda Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, zəngin mənəvi-əxlaqi irsinin təbliği, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Ermənistan silahlı qüvvələri tərəfindən tarixi-dini abidələrimizə qarşı törədilmiş terror faktlarının dünya ictimaiyyətinə çatdırılması prioritet istiqamət kimi müəyyənləşdirilib. Bu ilin may ayının 13-19 tarixlərində Azərbaycanın Los-Ancelesdəki baş konsulluğun təşkilatçılığı ilə ölkəmizdəki dini konfessiya təmsilçilərindən ibarət nümayəndə heyəti ABŞ-a səfər edib. Heyət ABŞ Katolik Kilsəsinin rəhbərlərindən biri, ABŞ Yepiskoplar Konfransının vitse-prezidenti, Los-Anceles arxiyepiskopu Xose Horasiyo Qomezlə, San-Fransisko Şəhər Şurasının üzvü Norman Yi və Kaliforniya ştat senatoru Ceri Hill ilə görüşlər keçirib. Səfər çərçivəsində ABŞ yəhudilərinin ən nüfuzlu dini mərkəzlərindən olan, Los-Ancelesdə fəaliyyət göstərən Sinay sinaqoqunda, həmçinin ABŞ-ın ən qədim qurumlarından olan "Commonwealth Club" təşkilatında Azərbaycanın multikulturalizm və dini tolerantlıq ənənələrinə həsr olunmuş tədbir keçirilib.

Noyabrın 19-da Berlin şəhərində Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycanın Almaniyadakı səfirliyinin, Almaniya-Azərbaycan Forumunun və Mədəni Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda keçirilmiş beynəlxalq konfransda da tolerantlığın ölkəmizdə möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğu bir daha vurğulanıb.

Dini müstəvidə dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il oktyabrın 10-da Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında müvafiq fərman imzalayıb. Milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən dövlət başçımızın bu addımı, eyni zamanda Dövlət Komitəsinə olan yüksək etimadın göstəricisidir.

Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanması və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığı sahəsində fəaliyyətinə dövlət dəstəyini təmin etməkdir.

Fond keçən il yaradıldıqdan sonra onun strukturunun tam formalaşması bir neçə ay davam etdi və 2018-ci ilin əvvəllərindən başlayaraq fəaliyyət göstərməyə başladı. Fondun bu günədək öz Nizamnaməsinə uyğun olaraq gördüyü işlər əsasən üç istiqamət üzrə olub. Birinci istiqamət Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi təyin olunan bütün imam, imam müavini və mütəvəllilərə aylıq maddi dəstək göstərməkdir. Belə ki, artıq Azərbaycanın hər bir bölgəsində fəaliyyət göstərən və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi təyin olunan 1060-dan yuxarı din xadiminə Fond tərəfindən hər ay maddi dəstək göstərilir.

İkinci istiqamət mənəvi dəyərlərimiz, eyni zamanda onun tərkib hissəsi olan dini dəyərlərimiz sahəsində geniş maarifləndirmə işinin aparılmasıdır. Maarifləndirmə işi müxtəlif formalarda təşkil olunub. Bakıda, ölkəmizin digər bir çox şəhər və rayonlarında ictimaiyyətin, xüsusilə gənclərin iştirakı ilə müxtəlif səpkili konfranslar, seminar müşavirə və seminar treninqlər keçirilib, Yay məktəbi təşkil olunub, bu tədbirlərə xüsusi ekspertlər cəlb olunaraq mənəvi dəyərlərimiz, Azərbaycançılıq ideologiyası, tariximiz, müasir dünyada ənənəvi dəyərlərimiz və s. kimi aktual mövzular ətrafında diskusiyalar aparılıb.

Üçüncü istiqamət şəhid və əlil ailələlərinə yardımlar göstərmək, ümumiyyətlə xeyriyyəçiliklə məşğul olmaqdır. Bu il Ramazan ayında respublikamızın müxtəlif bölgələrində şəhid ailələri və Qarabağ əlilləri üçün iftar süfrələri təşkil olunub, Ramazan və Qurban bayramlarında bəzi şəhid ailələrinə ərzaq yardımları göstərilib. Sentyabr ayında Fond tərəfindən Bilik Fondu ilə birgə cəbhəyanı bölgədə (Cocuq Mərcanlı, Füzuli, Ağdam, Tərtər, Laçın, Ağcabədi rayonlarında) məktəbə gedəcək 100 nəfər birinci sinif şagirdinə məktəbli forması və çantalar hədiyyə olunub.

Bundan əlavə, ölkəmizdəki yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında 2018-ci il 09 fevral tarixli, 3654 nömrəli Sərəncam imzalayıb. Sərəncamda göstərildiyi kimi, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədini daşıyır.

Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan xalqının din sahəsində yüksək ixtisaslı kadrlara olan tələbatını beynəlxalq standartlara əsaslanaraq təmin etmək, ilahiyyat sahəsindəki problemlərə işıq tutan və beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və çap etmək, həm İslam, həm də digər dünya dinləri haqqında dərin biliyə yiyələnən, tərəfsiz və bütün konfessiyalara qarşı dözümlülüklə yanaşan din xadimlərini məzun etmək, milli, dini və əxlaqi dəyərləri qorumaqla Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəsini vermək missiyasını həyata keçirməyi nəzərdə tutub.

Azərbaycan İlahiyyat İnstitutu dini xarici dairələrin nəzarətində olmayan, dinə məhdud çərçivədə deyil, geniş prizmadan yanaşmağı bacaran, fəaliyyətində dünyəvilik, tolerantlıq və multikulturalizm kimi Azərbaycan gerçəkliklərini nəzərə alan, xalqımızın tarixi ənənələrinə söykənən, yüksək dini-mənəvi mühitin qorunub saxlanmasına və inkişaf etdirilməsinə xidmət edən, dini fəaliyyətin təşkili sahəsində yüksək dini və dünyəvi savada malik ixtisaslı kadrların hazırlanmasını təmin edən mötəbər bir elm ocağı olmağı qarşısına məqsəd qoyub.

### *İlham Əliyev Azərbaycanı gələcəyə inamla aparır*

Sadalanan faktlar birmənalı şəkildə deməyə əsas verir ki, ölkəmizdə bütün sahələr, o cümlədən dövlət-din münasibətləri sağlam təməllər üzərində qurulub. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşıb. Bu, modern Azərbaycan dövləti modelidir.

Ölkə iqtisadiyyatında davamlı və dinamik inkişaf, bütün sahələrdə aparılan islahatlar Azərbaycanın gələcək inkişafının təminatçısıdır. 2018-ci il cənab Prezident tərəfindən aparılan uğurlu sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycana bəxş etdiyi mühüm nailiyyətlərlə zəngin bir il kimi tarixə yazıldı. Biz növbəti illərdə də Azərbaycanın daha böyük nailiyyətlər əldə edəcəyinə əminik. Bu günümüzün reallığı məhz ölkəmizin sürətli inkişaf yolunda inamla irəlilədiyini göstərir.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
Yeni Azərbaycan Partiyası İcra katibinin müavini

*"Azərbaycan" qəzeti, №290 (8017), 23 dekabr 2018-ci il.*

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN HİMAYƏÇİLƏR ŞURASININ TƏRKİBİ TƏSDİQ EDİLİB



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Himayəçilər Şurası yaradılıb və 7 nəfərdən ibarət tərkibi formalaşdırılıb.

Şuranın tərkibinə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyev, AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov daxil ediliblər.

Dekabrın 27-də Himayəçilər Şurasının ilk iclası keçirilib və təşkilati məsələlər müzakirə olunub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şuranın sədri seçilib.

Məlumat üçün bildiririk ki, Himayəçilər Şurasının səlahiyyətlərinə Azərbaycan İlahiyyat İnstitutunun strateji inkişaf proqramını təsdiq etmək, İnstitutun fəaliyyət istiqamətlərinə nəzarət etmək, elm-təhsil-innovasiya mərkəzi kimi inkişaf etməsinə, fundamental, nəzəri-metodoloji, pedaqoji-metodik və tətbiqi elmi layihələrinin həyata keçirilməsinə, beynəlxalq əlaqələrinin qurulmasına, AİI məzunlarının işlə təmin olunmasına dəstək vermək kimi məsələlər daxildir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb. İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdən ibarətdir.

# DİNİ İCMALARA ŞƏHADƏTNAMƏLƏR TƏQDİM EDİLİB



Dekabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş 18 dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil olunmuş tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.

Respublikamızda mövcud olan dövlət-din münasibətlərindən danışan DQİDK sədrinin birinci müavini Səyyad Salahlı vurğulayıb ki, Prezident İlham Əliyevin Ulu Öndərin zəngin siyasi irsinə söykənən ardıcıl, məqsədyönlü siyasəti nəticəsində Azərbaycan digər sahələrdə olduğu kimi, dinə, tolerant və multikultural dəyərlərə münasibətdə nümunəvi dövlətə çevrilib. O diqqətə çatdırıb ki, ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə yönəlmiş ardıcıl tədbirlər həyata keçirilir.

Yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə müvafiq tövsiyələr verən Dövlət Komitəsi sədrinin birinci müavini onlara daha aktiv olmalarını, ümummilli maraqlardan çıxış etməyi tövsiyə edib. S.Salahlı, eyni zamanda dini icma sədrlərinin məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısının alınması, milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrinin vacibliyini vurğulayıb.

Daha sonra qeydiyyat şəhadətnamələri dini icma sədrlərinə təqdim edilib.

Şamaxı rayonu Sabir qəsəbə məscidi dini icmasının sədri Tofiq Nuriyev çıxış edərək dinə dövlət qayğısından danışıb. DQİDK-nın fəaliyyətində dini icmalarla sıx əməkdaşlığa xüsusi diqqət yetirilməsini yüksək qiymətləndirib.

# "Vəhdət – dini təhlükəsizliyin əsas təminatçısı kimi"



Dekabrın 5-də Oğuz rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə keçirilən seminar-müşavirədə Dövlət Komitəsinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin məsul şəxsləri, bu qurumların Balakən, Zaqatala, Qax, Şəki və Oğuz rayonlarındakı yerli strukturlarının rəhbərləri, rayonların icra hakimiyyəti başçılarının müavinləri iştirak ediblər.

Əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş "Vəhdət qanımızdadır" sənədli filmi nümayiş olunub.

Tədbirdə çıxış edən Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda dövlət-din münasibətlərinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasındakı xidmətlərindən danışıb. Rayondakı mövcud dini durum və dini icmaların fəaliyyəti barədə məlumat verən E.Qurbanov dini radikalizmə qarşı mübarizənin səmərəliliyinin artırılmasında belə tədbirlərin əhəmiyyətini xüsusi vurğulayıb.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov dünyada cərəyan edən ictimai-siyasi proseslərdə gərginlik dinamikasının artdığını, baş verən münaqişələrin əsasən dini zəmində olduğunu bildirib. Qeyd edib ki, dünyanın bir sıra güc mərkəzləri geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək məqsədilə dindən vasitə kimi istifadə edir.

Bütün bunların dünyada sülhə, mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqa təhlükə olduğunu vurğulayan Komitə sədrinin müavini ölkəmizə qarşı da din pərdəsi altında bir sıra pozuculuq fəaliyyətinə cəhdlər edildiyini diqqətə çatdırıb. "Bu, onu göstərir ki, Azərbaycan da bu proseslərdən sığortalanmayıb", - deyə qurumun rəsmisi bildirib.

Qeyd olunub ki, yad dini ideologiyaların ölkəmizə idxal olunmasının qarşısının alınması, eləcə də gənclərin ekstremizmin təsirindən qorunması üçün müvafiq qurumlarla birlikdə ideoloji və hüquqi müstəvidə sistemli tədbirlər, o cümlədən maarifləndirmə işləri həyata keçirilməkdədir. DQİDK-nın sifarişi ilə çəkilmiş "Vəhdət qanımızdadır" sənədli filmi də vəhdət ənənəsinin mahiyyətindən bəhs edir. Filmdə əks olunan məzhəblərarası vəhdət prinsipləri böyük əhəmiyyətə malikdir.

Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov ölkəmizdə din pərdəsi altında bəzi kriminal ünsürlərin cinayət əməllərinin təsnifatı, eləcə də bu istiqamətdə qanunvericilik bazası barədə ətraflı məlumat verib.

Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Oqtay Tağıyev dini radikalizm və ekstremizmin ictimai təhlükəsizliyə yaratdığı təhdidlərdən danışıb, ölkəmizdə dini radikalizmin yayılması metodlarından bəhs edib. Qurumun təmsilçisi, həmçinin bu istiqamətdə mövcud qanunvericiliyin tələblərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Kamran Məmmədov İslamın sülh, birlik və vəhdət dini olduğunu, insanları əmin-amanlığa, qarşılıqlı dözümlülüyə, mərhəmətə çağırdığını vurğulayıb. Bölgə qazısı Azərbaycanda dinə və dindarlara göstərilən dövlət qayğısına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Seminar-müşavirədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov da iştirak edib.

# "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ"



Dekabrın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şirvan Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Hüquq mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri və digər ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirəni giriş sözü ilə açan Şirvan ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin respublikamızda dövlət-din münasibətlərinin, eləcə də milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında əvəzsiz xidmətləri olub. O qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu bu siyasət bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. A.Hüseynov, eyni zamanda Şirvan şəhərindəki dini durum və dini icmaların fəaliyyəti barədə ətraflı məlumat verib.

Daha sonra Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdəki dövlət-din münasibətlərindən danışıb. O qeyd edib ki, dövlət tərəfindən dindarlara, o cümlədən İslam və qeyri-İslam təmayüllü dini icmalara diqqət və qayğı göstərilir. S.Salahlı Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi dövlət-din münasibətlərində də müstəqilliyimizə, milli-mənəvi dəyərlərimizə, dinimizə uyğun qaydaların təsbit olunduğunu vurğulayıb.

Cəmiyyətimizi dini radikalizmdən, xurafatdan, mövhumatdan uzaq, saf dini biliklərlə maarifləndirməyin önəminə də toxunan S.Salahlı din xadimlərini, icma sədrlərini tarixi irsimizin mühüm hissəsi olan dinimizin, milli-mənəvi dəyərlərimizin ictimaiyyətə düzgün çatdırılması işində fəallığa çağırıb.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Əvəz Mehrəliyev öz çıxışında bildirib ki, Şirvanda fəaliyyət göstərən din xadimləri və dini icmalar hər zaman xalqımızın milli-mənəvi dəyərlərinə yad olan dini ideologiyaların ölkəmizə ayaq açmasının qarşısının alınmasında fəal iştirak ediblər, bundan sonra da dini radikalizm və xurafatçılıqla mübarizədə fəal olacaqlar.

### *Seminar-müşavirə növbəti gün öz işini davam etdirib.*

Şirvan ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov öz çıxışında milli-mənəvi və dini dəyərlərin zəngin inkişaf tarixi və ənənələrdən danışıb. Onun sözlərinə görə, hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq, eləcə də multikulturalizm mühitinin qorunması və möhkəmləndirilməsi dövlət qarşısında duran başlıca vəzifələrdən hesab olunur.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında dini radikalizm və onunla mübarizə üsullarından bəhs edib. S.Salahlı vurğulayıb ki, müasir dövrdə qloballaşan dünyada terror və ekstremizmlə mübarizədə müxtəlif üsullardan istifadə olunur, bir sıra hallarda inzibati metodlara üstünlük verilir. Onun sözlərinə görə, bu gün ekstremizmlə mübarizədə ən səmərəli metodlardan biri maarifləndirmə işinin gücləndirilməsi, insanların, xüsusilə də gənc nəslin dini biliklərinin artırılmasıdır. DQİDK sədrinin birinci müavini onu da deyib ki, ümumi təhlillər gənclərin bu təsirlərə daha çox dini biliklərinin zəif olması və savadsızlıq səbəbindən məruz qaldıqlarını göstərir.

Daha sonra Dövlət Komitəsinin şöbə müdiri Cahandar Əlifzadə çıxış edərək terrorizmin getdikcə daha da gəncləşdiyini, gənclərin terror təşkilatlarına daha çox qoşulduğunu deyib. C.Əlifzadə dini radikal qrupların gəncləri özlərinə cəlb etdikləri təbliğat metodlarından danışıb. Qeyd edib ki, bu qruplar İslamı, Quran ayələrini təhrif edərək insanlara çatdırır, cihad adı altında terror hadisələri törədirlər. Həmçinin bildirib ki, gənclərin dini radikalizmdən və ekstremizmdən qorunmaları üçün təhsilin və dinin əsl mahiyyətinin onlara düzgün çatdırılması vacibdir.



Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizmin və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb.

### Analoji tədbir dekabrın 13-də DQİDK və Masallı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə Masallı rayonunun hüquq mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ceyhun Başirov rayondakı dini durum və dini icmaların fəaliyyəti barədə ətraflı məlumat verib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı respublikamızda dinlərarası və məzhəblərarası münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb və bildirib ki, bir sıra ölkələrdə məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respublikamızda məzhəblər arasında həmrəylik mövcuddur və Azərbaycanın əksər məscidlərində vəhdət namazları qılınır. Ölkə rəhbərliyinin mənəvi dəyərlərimizə diqqət və qayğısından da danışan S.Salahlı Azərbaycanda müxtəlif dinlərə etiqad edən insanların Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu milli siyasət nəticəsində mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyini qeyd edib.

DQİDK sədrinin birinci müavini, eyni zamanda İslam dininin sülh, mərhəmət və həmrəylik dini kimi milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mirqiyas Təhməzov mövzu ilə bağlı fikirlərini bölüşüb.

### *Seminar-müşavirə dekabrın 14-də öz işini davam etdirib.*

RİH başçısının müavini Aybəniz Qafarova bildirib ki, Azərbaycan xalqı hər zaman öz milli-mənəvi, dini dəyərlərinə hörmətlə yanaşıb. Müstəqil respublikamızda hazırda 2000-dən artıq məscidin, İslam dininə aid onlarla ziyarətgahın fəaliyyət göstərməsi xalqımızın əsrlər boyu yaşatdığı dini dəyərlərə göstərdiyi ehtiramın nəticəsidir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı isə öz çıxışında milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında və inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin xidmətlərini vurğulayıb və Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb.

Daha sonra o, İslam dinini radikalizmə sürükləmək meyillərinin artmasından, bəzi qüvvələrin İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışmasından, terrorla əlaqələndirmək istəklərindən bəhs edib. Gənclərimizin dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyətinin bütün cəmiyyətin üzərinə düşdüyünü diqqətə çatdırıb. S.Salahlı bölgələrdə dini radikalizm və ekstremizmin mahiyyətinin izah olunması, İslam dini ənənələrimizin və milli-mənəvi dəyərlərimizin ictimaiyyətə daha geniş çatdırılmasının vacibliyinə toxunub.

Daha sonra çıxış edən DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə terrorizmin bəlalarından danışıb. Dövlət Komitəsinin əməkdaşı Tərxan Paşazadə isə "Üfüqdəki gələcək" sənədli filmi barədə ətraflı məlumat verib.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Üfüqdəki gələcək" sənədli filmi nümayiş olunub və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# BAKIDA "DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

Dekabrın 26-da Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Din və ideoloji təhlükəsizlik" mövzusunda konfrans keçirilib.

Tədbirdə DQİDK-nin rəhbərliyi, Prezident Administrasiyasının, Baş Prokurorluğun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Daxili işlər, Gənclər və İdman, Təhsil nazirliklərinin, Qafqaz Müsəlmanları İdarəsinin məsul şəxsləri, Milli Məclisin deputatları və digər qurumların nümayəndələri iştirak ediblər.



Tədbirdə çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, bu gün sürətlə dəyişən və ziddiyyətli təzahürləri ilə qloballaşan dünyada son dərəcə mürəkkəb proseslər baş verir. Aparılan təhlillərin nəticələrinə görə, dünyadakı mövcud ziddiyyətlərin, müharibələrin kökündə əsasən dini və etnik zəmində baş verən münaqişələr dayanır. Xüsusilə son dövrdə dinin siyasiləşdirilmiş formada yayılması və təqdim edilməsi olduqca təhlükəlidir. Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərdi ki, dini təhlükəsizlik təmin olunmadan milli təhlükəsizliyə nəzarət etmək qeyri-mümkündür.

Azərbaycanda tarixən formalaşmış yüksək tolerantlıq mədəniyyətinin cəmiyyətimizin təhlükəsizliyi üçün böyük potensial olduğunu deyən S.Heydərov diqqətə çatdırıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda nümunəvi multikultural və birgəyaşayış modeli formalaşıb. Uzaqgörənliklə həyata keçirilən, balanslaşdırılmış, qarşılıqlı maraqlara söykənərək reallaşdırılan, milli və dövlətçilik ənənələrimizin də qətiyyətlə müdafiə edildiyi bu siyasi kurs Azərbaycanı inkişaf etdirməklə yanaşı, dünyanın mühüm sivilizasiyalar və dinlərarası dialoq mərkəzlərindən birinə çevirib.

S.Heydərov mövcud təhlükə, təhdidlərin qarşısının alınması üçün sistemli və geniş formada maarifləndirmə tədbirlərinin keçirildiyini bildirib. Bugünkü konfransın da bu istiqamətdə atılan addımlara bir nümunə olduğunu deyən sədr müavini maarifləndirmə tədbirlərinin səmərəliliyinə xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.

"Dünyəvi dövlətdə din və ideoloji təhlükəsizlik məsələləri" mövzusunda çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması, dindar kontingent daxilində dünyəviliyin, tolerantlığın, ənənəvi İslamın zəiflədilməsi, məzhəbçiliyin, xarici təsirlərin, radikallığın gücləndirilməsi, eləcə də dinin siyasiləşdirilməsi, cəmiyyətdə dini qütbləşmənin və sosial təbəqələşmənin yaradılması istiqamətlərində məkrli qrupların zərərli fəaliyyəti barədə danışıb. Təəssüflə qeyd edib ki, bəzi dini qruplar dini kimliyimizlə milli kimliyimizi məqsədli şəkildə qarşı-qarşıya qoyurlar. Onun sözlərinə görə, azərbaycançılıq nəinki İslama zidd deyil, əksinə, özündə dinimizlə bağlı elementləri ehtiva edir. Bunu özündə ən gözəl formada əks etdirən üçrəngli bayrağımızdır. Dini zəmində qadın hüquqlarının məhdudlaşdırılması, xurafat meyillərinin gücləndirilməsi cəhdlərindən, habelə diasporumuza dini zəmində yönəlik təhdidlərdən də bəhs edən Gündüz İsmayılov bildirib ki, cəmiyyətdəki xurafat elementləri dinlə əlaqələndirilsə də, əslində, dinə heç bir aidiyyəti yoxdur. İslamda elm öyrənmək, təhsil almaq kişi və qadın fərqi qoyulmadan bütün insanlara vacib buyurulub.

Xalqımızın ailə dəyərlərinin tərkibində həm İslamdan, həm milli adət-ənənələrimizdən, həm də müasir dövrümüzün tələblərindən qaynaqlanan keyfiyyətlərin olduğunu vurğulayan sədr müavini məkrli qruplar tərəfindən cəmiyyətdə dini qütbləşmənin və sosial təbəqələşmənin yaradılmasına müəyyən cəhdlərin olunduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, bu sahədə yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliği vacibdir, çünki ənənəvi İslam dinin siyasiləşməsinə, bölücülüyə haqq qazandırmır.




"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu isə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə medianın rolu" mövzusunda çıxış edib. Deputat bu cür konfransların keçirilməsinin əhəmiyyətini önə çəkərək bildirib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində medianın rolu böyükdür. Qeyd edib ki, xarici qüvvələrin dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında media nümayəndələrinin fəaliyyəti xüsusi önəm daşıyır.

H.Babaoğlu milli-mənəvi və dini dəyərlərimizin təbliğ və təşviq edilməsində, dinin ictimaiyyətə düzgün formada çatdırılmasında media təmsilçilərinin üzərinə böyük öhdəlik düşdüyünü deyib. Bildirib ki, jurnalistlər dinimizin təbliğini məhz bu istiqamətdə təşkil etməli, dini radikalizmlə mübarizədə daha fəal olmalı, terrorizmə və ekstremizmə qarşı tənqidi mövqelərini açıq-aydın şəkildə nümayiş etdirməlidirlər.

Milli Məclisin deputatı Elman Nəsirov "Din və terrorçuluq: əks qütblər" mövzusunda məruzə ilə çıxış edərək beynəlxalq terrorizmə qarşı mübarizənin əhəmiyyətinə toxunub. Bildirib ki, bir sıra ölkələrdə dinlərarası, məzhəblərarası münasibətlərdə gərginlik artsa da, respubli-kamızda bu sahədə həmrəylik, tolerantlıq mühiti möv-cuddur. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli", ötən ilin isə "İslam Həmrəyliyi İli" elan edildiyini bildirən Milli Məclisin deputatı bu nümunəvi siyasətin təqdir edildiyini, ölkəmizin dünyaya tolerantlıq ixrac etdiyini vurğulayıb.

Dini radikalizmlə mübarizə tədbirlərindən də danışan deputat dini ekstremizm, radikalizmlə mübarizədə vəhdətin və həmrəyliyin vacibliyini diqqətə çatdırıb. Vurğulayıb ki, bəzi xarici qüvvələr dini radikal qruplara dəstək verərək onların vasitəsilə İslamı gözdən salmağa, dinimizi terrorla eyniləşdirməyə, müsəlman ölkələrində münaqişələr yaratmağa cəhdlər edirlər.

"Dini radikalizmə və ekstremizmə qarşı mübarizənin hüquqi əsasları" mövzusunda çıxış edən Baş Prokurorluğun nümayəndəsi Rauf Məmmədov müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə məlumat verib. Respublikada xarici dövlətlərin və onların təsiri altında olan siyasi və dini dairələrin müdaxilələrinin qarşısının tamamilə alınması, Azərbaycanın dünyada gedən mürəkkəb və təhlükəli proseslərdən sığortalanması, yad dini ideologiyalar yayan dini qruplara qarşı planlı, əlaqəli şəkildə iş aparılmasının önəminə toxunub.

Konfransda "İctimai təhlükəsizliyin təmin olunmasında dini təhlükəsizlik amili" mövzusunda məruzə ilə çıxış edən Daxili İşlər Nazirliyinin nümayəndəsi Oqtay Tağıyev bildirib ki, dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsi yolverilməzdir. Vurğulayıb ki, radikalyönümlü təriqətlər tərəfindən cəmiyyətdə ayrı-seçkilik, ədavət salınması, dözümsüzlük ideyalarının yayılmasına yönəlik cəhdlərin qarşısının alınması məqsədilə təmsil etdiyi qurum tərəfindən lazımi addımlar atılır, o cümlədən profilaktik işlər görülür.

Dövlət Təhlükəsizliyi Xidmətinin nümayəndəsi "Dini radikalizm və ekstremizm milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda ətraflı çıxış edib. Beynəlxalq aləmdə cərəyan edən hadisələrin gedişi göstərir ki, dini mühitdə radikal və ekstremist təmayüllərin inkişafı insanların hüquq və azadlıqlarının, xüsusilə təhlükəsiz yaşamaq hüququnun pozulmasına zəmin yaradır. Natiq Azərbaycanın müxtəlif qüvvələrin maraqlarının kəsişdiyi strateji mövqedə yerləşməsinə baxmayaraq, ölkəmizə qarşı düşmənçilik və pozuculuq niyyətlərinin vaxtında qarşısının alınması istiqamətində bütün lazımi tədbirlərin həyata keçirildiyini qeyd edib.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmağa, əmin-amanlığı, sabitliyi pozmağa, yad dini ideologiyaları İslam adı altında təbliğ etməyə çalışan bəzi ünsürlərə qarşı mübarizədə din xadimlərinin qarşısında duran vəzifələrdən və bu sahədə həyata keçirilən tədbirlərdən danışıb.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov çıxış edərək bildirib ki, dini maarifləndirmə ilə bağlı keçirilən tədbirlər radikal düşüncə tərzinin formalaşmasının qarşısını alır. Vurğulayıb ki, bu cür tədbirlər gənclərin mənəviyyatının zənginləşməsinə də təkan verir.

Təhsil Nazirliyinin nümayəndəsi İntiqam Cəbrayılov "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə təhsilin rolu", Gənclər və İdman Nazirliyinin nümayəndəsi Elşən Hüseynov "Gənclərin dini radikalizm və ekstremizm təhlükəsindən qorunması", Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Aynur Veysəlova "Azərbaycan ailəsinin zərərli dini ideologiyalardan qorunması" mövzularında çıxış ediblər.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# "N" SAYLI HƏRBİ HİSSƏDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB

Dekabrın 18-də Müdafiə Nazirliyinin Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsində maarifləndirmə tədbiri keçirilib. Əvvəlcə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov dini radikalizmi doğuran səbəblərdən, radikalizmlə mübarizədə maarifləndirmə işinin önəmindən danışıb, radikalizmi doğuran başlıca səbəblərdən biri kimi dinlərin mahiyyətinin təhrif olunduğunu qeyd edib. Vurğulayıb ki, İslam dini haqqında bilgiləri zəif olan insanların radikal cərəyanlara, qruplara cəlb edilməsi daha asan olur. Ona görə də dini radikalizmlə mübarizədə ilk növbədə dini maarifçilik işinin təşkilinə xüsusi önəm verilməlidir. Səyavuş Heydərov diqqətə çatdırıb ki, bütün fəaliyyətimizin hədəfi milli və islami dəyərlərimizin qorunmasına və təbliğinə yönəlib. Bu cür maarifçilik tədbirləri cəmiyyətin bütün təbəqələrini əhatə edir, o cümlədən hərbi hissələrdə təşkil olunur.

"Şəhadət" sənədli filminin çəkilməsini zəruri edən amillərə toxunan sədr müavini filmin dini maarifləndirmə işindəki əhəmiyyətindən danışıb.

Sonda hərbçiləri maraqlandıran suallar cavablandırılıb.



# «ŞƏHADƏT» SƏNƏDLİ FİLMİ İCTİMAİYYƏT TƏRƏFİNDƏN MARAQLA QARŞILANIB



Dekabrın 19-da Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Yevlax bölgəsi üzrə şöbənin müdiri Natiq Əfəndiyev, hərbi hissənin zabiti Möhübbət Tağıyev, eləcə də zabit və əsgər heyəti iştrak ediblər.

Tədbiri giriş sözü ilə açan Möhübbət Tağıyev ölkəmizdə ictimai-siyasi sabitliyin və dünyaya örnək ola biləcək tolerantlıq mühitinin olduğunu vurğulayıb, tolerantlığın milli mənsubiyyətindən, dinindən asılı olmayaraq hər bir azərbaycanlının həyat tərzinə çevrildiyini qeyd edib. "Şəhadət" sənədli filminin hərbi hissələrdə nümayiş etdirilməsinin təqdirəlayiq hal olduğunu bildirən M.Tağıyev bu cür maarifləndirmə tədbirlərinin mütəmadi şəkildə həyata keçirilməsinin əhəmiyyətindən danışıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov xalqımızın əsrlər boyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, vicdan azadlığının təmin olunması, ölkədə dövlət-din münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəminində formalaşdırılması istiqamətində görülən tədbirlər barədə danışıb. Radikalizmin formalaşması, yayılması metodları, əhatə dairəsi barədə də məlumat verən Komitə sədrinin müavini onun qarşısının alınması məqsədilə həyata keçirilən maarifləndirmə tədbirlərinin ən effektiv vasitə olduğunu vurğulayıb.

* * *

Dekabrın 21-də isə film Bakı Nəqliyyat Agentliyinin kollektivinin iştirakı ilə Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatında nümayiş olunub.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Bakı Nəqliyyat Agentliyinin Aparat rəhbəri Gülşən Rzayeva, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Sədaqət Vəliyeva ölkəmizdəki ictimai-siyasi sabitlikdən və tolerantlıq mühitindən danışıb.

Səyavuş Heydərov isə "Şəhadət" sənədli filmi barədə məlumat verib. Filmin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi işinə böyük töhfə verdiyini diqqətə çatdırıb. Komitənin sədr müavini dini radikalizmə qarşı mübarizə çərçivəsində tolerant, multikultural və həmrəylik dəyərlərinin təbliğatının genişləndirilməsi istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərindən də söz açıb. Vurğulayıb ki, gənclər dini məlumat əldə etmək üçün informasiya mənbələrini seçərkən diqqətli olmalıdırlar.

Sonda tədbir iştrakçıları film barədə öz təəssüratlarını bölüşüblər.

# SOCAR-ın strukturuna daxil olan qurumlarda dini maarifləndirmə tədbirləri keçirilib

Dekabrın 18-də Sumqayıt şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) tərkibindəki "Azərikimya" İstehsalat Birliyinin birgə təşkilatçılığı ilə "Dini ekstremizmin mahiyyəti, təzahür formaları və ona qarşı mübarizənin hüquqi əsasları" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, "Azərikimya" İstehsalat Birliyinin məsul şəxsləri, eləcə də, müəssisənin əməkdaşları iştirak ediblər.

Əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş olunub.

"Azərikimya" İstehsalat Birliyinin Həmkarlar İttifaqı Komitəsinin sədri Vaqif Ömərov maarifləndirmə məqsədilə bu cür tədbirlərin təşkilini təqdirəlayiq hal kimi qiymətləndirib. O, "Şəhadət" filminin əhəmiyyətindən danışaraq bildirib ki, sənədli film Vətənin müqəddəsliyi və onun müdafiəsinin vacibliyinin təbliğatı baxımından yüksək əhəmiyyətə malikdir.



Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov vurğulayıb ki, bu cür tədbirləri keçirməkdə əsas məqsəd cəmiyyəti, xüsusilə gəncləri dini mühitdəki tendensiyalar, xaricdən yönəlmiş təhdidlər, yad ideologiyaların Azərbaycana ixracına cəhdlər barədə məlumatlandırmaq və maarifləndirməkdir. Bildirib ki, ölkəmiz mürəkkəb beynəlxalq vəziyyətə, regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin edir.

Bu səpkidə digər tədbir isə Sumqayıt şəhərindəki "SOCAR Polymer" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilib.

Görüşdə çıxış edən "SOCAR Polymer" şirkətinin Baş maliyyə direktoru Fuad Əhmədov bu cür maarifləndirmə tədbirlərinin keçirilməsinin əhəmiyyətinə toxunub və vurğulayıb ki, Azərbaycanda vicdan azadlığı təmin edilir, bunu düzgün qiymətləndirmək, dinə düzgün əməl etmək lazımdır.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov bildirib ki, respublikamızdakı tolerant və multikultural mühit bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul olunur. Ona görə də dini radikalizmdən istifadə etmək istəyən qüvvələr çalışırlar ki, müxtəlif dövlət qurumlarına nüfuz etsinlər. Sədr müavini onlarla mübarizə aparıldığını, vətəndaşlarımızın, xüsusilə gənclərin zərərli dini ideologiyaların təsiri altına düşməsinin qarşısının alınması üçün zəruri işlərin həyata keçirildiyini diqqətə çatdırıb və DQİDK-nın sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmi haqqında ətraflı məlumat verib.

# "Dini ekstremizm – ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi"



Dekabrın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bərdə rayonunda "Dini ekstremizm – ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi" mövzusunda seminar-müşavirə keçirilib. Seminar-müşavirədə Baş Prokurorluq, Ədliyyə və Daxili İşlər nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti və DQİDK-nın rəhbər şəxsləri, eyni zamanda, bu qurumların Bərdə, Ağcabədi, Laçın, Ağdam, Tərtər və Zərdab rayonlarındakı yerli strukturlarının məsul nümayəndələri, ətraf rayonların icra hakimiyyətləri başçılarının müavinləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzərək, xatirəsinə ehtiramlarını bildiriblər. Bərdə Rayon İcra Hakimiyyətində (RİH) keçirilən tədbir "Şəhadət" sənədli filminin nümayişi ilə başlayıb.

Daha sonra çıxış edən Bərdə RİH başçısının birinci müavini Vahid Qarayev ölkəmizdəki nümunəvi dövlət-din modeli barədə danışıb və rayondakı dini durum barədə məlumat verib.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov bildirib ki, maarifləndirici xarakter daşıyan seminar-müşavirənin keçirilməsində əsas məqsəd Azərbaycanda dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işlər və qarşıda duran vəzifələrin müzakirəsidir. "Şəhadət" filminin süjet xətti, Vətən uğrunda canlarından keçmiş şəhidlərimiz, həmçinin radikal qruplaşmaların, qeyri-qanuni hərbi birləşmələrin tərkibində vuruşaraq öldürülən insanlar haqqında danışan natiq qeyd edib ki, ölkəmizdə bütün dünyaya nümunə ola biləcək dövlət-din münasibətləri, tolerantlıq, multikulturalizm, birgəyaşayış ənənəsi formalaşıb. Azərbaycanın bu nümunəvi modelini qorumaq, yeni nəsillərə ötürmək hər birimizin borcudur.

Səyavuş Heydərov bildirib ki, ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən Azərbaycana təkcə siyasi yox, həm də dini müstəvidə təsirlərin göstərilməsinə, yad dini ideologiyaların ixrac edilməsinə cəhdlər olunur. "Biz islami dəyərlərin Azərbaycanda inkişaf etməsini, İslam dininin mənəviyyat amili kimi həyatımızda olmasını istəyirik. Xalqımız İslam dinindən siyasi məqsədlər üçün istifadəyə, xurafata meyilliliyə, dini radikalizmə bundan sonra da imkan verməyəcək. Ölkə vətəndaşlarını, xüsusən də gəncləri yad təsirlərdən qorumaq üçün hər birimiz çalışmalıyıq. Bu işdə, o cümlədən əsl İslamın insanlara olduğu kimi çatdırılmasında din xadimlərinin üzərinə böyük missiya düşür", - deyə komitə sədrinin müavini diqqətə çatdırıb.

Daha sonra Baş Prokurorluğun nümayəndəsi Rauf Məmmədov, Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev mövzu ilə bağlı çıxış edib, təmsil etdikləri qurumların dini radikalizm və dini ekstremizmlə mübarizə istiqamətində həyata keçirdikləri profilaktik və inzibati tədbirlərdən söz açıblar.

Dövlət Təhlükəsizliyi Xidmətinin Bərdə rayon şöbəsinin rəisi Məzahir Xəlilov isə çıxışında gənclərimizin radikal təsirlərdən qorunması üçün milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunmasının vacibliyini vurğulayaraq, radikal və ekstremist qruplarla mübarizədə dövlət orqanlarının birgə əməkdaşlığının zəruriliyini qeyd edib.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazısı Ramazan Hüseynov bildirib ki, ölkəmizdə dindarlara daim diqqət və qayğı göstərilir, yeni məscidlər tikilir, bərpa və təmir edilir. Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətləri bu gün ölkəmizin inkişafına böyük töhfə verir və dindarlar daim dövlətin yanındadır.

Seminar-müşavirədə Azərbaycan Respublikası Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov da iştirak edib.

# "DİNİ MAARİFLƏNDİRMƏ İŞİNİN TƏŞKİLİ: GERÇƏKLİKLƏR VƏ PERSPEKTİVLƏR"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qusar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə dekabrın 6-da "Dini maarifləndirmə işinin təşkili: gerçəkliklər və perspektivlər" mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Tədbirdə DQİDK və RİH-in rəhbər şəxsləri, eləcə də rayon məktəblərinin direktorları, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayondakı dini durum, eləcə də dini icmaların fəaliyyəti barədə ətraflı məlumat verən RİH-in nümayəndəsi Telman Kazımov maarifləndirmə tədbirlərinin keçirilməsini yüksək qiymətləndirib.

Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov çıxışında dövlət-din münasibətləri istiqamətində görülən işlərdən, ölkəmizdə mövcud olan tolerantlıq və multikulturalizm mühitindən danışıb. Bildirib ki, dövlətin din siyasətinin əsas məqsədi ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafı üçün əlverişli şəraitin yaradılması, eləcə də cəmiyyətdaxili sabitliyin möhkəmləndirilməsindən ibarətdir.

